# GƏLƏCƏK UĞURLA GƏLƏCƏK



Mən oxuduğum Xırdalan şəhər 9 nömrəli tam orta məktəbin ibtidai siniflərində vaxtaşırı qonaq oluram. İbtidai sinif şagirdləri ilə vətənpərvərlik mövzusunda diskussiya aparır və onlara vətənpərvərlik mövzusunda yazdığım şeirlərimi söyləyirəm, özüm haqda məlumatverirəm.

Bu dəfə də belə oldu. 25 fevral 2020-ci ildə məktəbimizin dəyərli ibtidai sinif müəlliməsi Hicran Nağıyevanın sinif rəhbəri olduğu 4d sinfində qonaq oldum.Hicran müəllimə və şagirdləri məni çox mehribanlıqla qarşıladılar.Hicran müəllimə məni gözəl sözləri ilə şagirdlərinə təqdim etdi. Hətta "Dünyamsan Azərbaycan" adlı kitabımın "Ön söz"ündən bir hissəsini öz şagirdlərinə oxudu.

Şagirdlərin bir qisminə şeir kitablarımı və bütün şagirdlərə isə redaksiya heyətinin üzvü və ən gənc ictimai müxbiri olduğum "Kredo" qəzetini hədiyyə etdim.Şagirdlərin qarşısında "Qarabağ marşı", "Ayrı düşdük Qarabağdan" və "Narahat olma,Qarabağ" adlı şeirlərimi söylədim.Milli Kitabxanamızda Xocalı Faciəsinin anım günü tədbirində "Soyqırım var Xocalıda" adlı şeirimi dediyim vaxt çəkilmiş videogörüntünü şagirdlərə baxmaq üçün kiçik monitorda təqdim etdim.

4d sinfinin şagirdləri mənim gəlişimdən çox sevindilər.Hətta onlar mənə suallar verdilər.Həmin sinifin şagirdi Şirəliyev İqbal məndən soruşdu ki,sənin sinif yoldaşların da sənin kimi yaxşı oxuyurlar?- Mən isə "bəli yaxşı oxuyurlar " dedim. Sonra həmin sinfin digər şagirdi İmanova Xəyalə onlarla görüşə gəldiyim və onlara öz şeirlərimi səsləndirdiyim üçün mənə təşəkkür etdi.Dedi ki,sizin kitablarınız hamıya çatmadı.Mən anamdan xahiş edəcəyəm ki,valideynlər olan whatsapp qrupuna yazsın ki, sizin şeirlərinizi qrupa göndərsinlər və mən oradan həmin şeirləri oxuyum. Mən isə Xəyalə bacıma və bütün şagirdlərə "mənim iki şeir kitabımı və bütün məqalələrimi Milli Kitabxananın ek-.anl.az saytından onlayn variantda istədiyinizvaxt rahatlıqla oxuya bilərsiniz" dedim. Şagirdlərə yaxşı oxumaqlarını arzu etdim və dedim ki, siz yaxşı oxuyun, siz yaxşı oxusanız, mən də sizinlə fəxr edəcəyəm.

Həmin sinifdə olanda gözüm məndən solda partada əyləşmiş bir şagirdə dəydi. Sakit-sakit oturub həm qarşısındakı "Kredo" qəzetinə baxır, həm də məni və sinifdə olanları maraqla izləyirdi. Bu mədəni oğlan bizim çox hörmətli qonşumuz Gülzar xanımın nəvəsi İsmayıllı Xudaverdi Xəyal oğlu idi. Xudaverdini görüb çox sevindim. Çünki onu nənəsigilə gəlib-getdiyi vaxtlardan tanıyırdım. Mən Xudaverdi ilə görüşdüm və onunla xatirə şəkili çəkdirdim.

Sonda Hicran müəllimə mənə belə dedi: "Mən sevinirəm ki, Azərbaycanın sənin kimi multikultural, tolerant bir şagirdi və vətəndaşı var. Fəxr edirəm. Bu yolda sənə uğurlar arzu edirəm. Arzu edirəm ki, bu yolun sona qədər davamçısı olasan, həmişə zirvədə olasan. Sənə bu iş fəaliyyətində kuliminasiya nöqtəsinə çatmağı arzu edirəm".

Mən isə Hicran müəlliməyə müəllimlik həyatında uğurlar arzu etdim və bütün şagirdlərinin müxtəlif universitetlərdə oxuyaraq onun başını uca etməsini arzuladım.

4d sinfinin şagirdlərinə isə bir daha təşəkkür edir, onlara uğurlar və zehin açıqlığı arzu edirəm. Bu şəraiti mənə yaratdıqlarına görə Abşeron Rayon İcra Hakimiyyəti başçısının müavini hörmətli Fuad müəllim Cəbrayılova, Abşeron Rayon Təhsil şöbəsinin müdiri Nazilə xanım Məmmədovaya, Xırdalan şəhər 9 nömrəli orta məktəbin direktoru Həcər xanım İbrahimovaya və həmin məktəbin bütün müəllim kollektivinə dərin təşəkkürümü bildirirəm.

Görüşün səhəri günü isə mənim şeirlərimi ürəklə oxumaq istədiyini bildirib yaşıdlarına örnək olan Xəyaləyə iki şeir kitabımı və məqalələrim,şeirlərim dərc olunan "Kredo" qəzetinin müxtəlif saylarını hədiyyə etdim. MƏN HƏR BİR ÇALIŞQAN ŞAGİRDƏ UĞURLARINI DAHA DA ARTIRMASI ÜÇÜN MƏNƏVİ DƏSTƏK OLMAĞA HAZIRAM VƏ BUNUNLA QÜRUR HİSSİ DUYURAM!

*25.02.2020*

***:  Sevindik  NƏSİBOĞLU***